# Yeni təşkilat, yeni dönəm, yeni vəzifələr

***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Türk Dövlətləri Təşkilatına (TDT) çevrilməsi 12 il ərzində mümkün oldu. Türk Şurası 2009-cu il oktyabrın 3-də Naxçıvanda qəbul edilən qərarla qurulmuşdu. Nə gözəl təsadüfdür ki, Ermənistanın üzərində Zəngilandan Naxçıvana avtomobil və dəmiryolunun çəkilməsi öhdəliyi yaratmış 44 günlük müharibə də türk dövlət və hökumət başçılarının VIII Zirvə toplantısında gündəm oldu. Zirvə toplantısına evsahibliyi edən Rəcəb Tayyip Ərdoğanın azərbaycanlı həmkarını məhz müzəffər Ali Baş Komandan adlandıraraq və Qarabağda qazandığı Zəfəri də səbəb göstərərək, Türk Dünyasının Ali ordeni ilə təltif olunmasını bəyan etməsi tədbirin zirvə hadisəsi oldu.***



Türkdillidən türkə, Şuradan təşkilata cevrilmək məhz Azərbaycanın tarixi Zəfərindən sonra baş verib. Bəli, yalnız Azərbaycan – Ermənistan münasibətləri deyil, Qafqaz ölkələri, Türk dünyası, Avrasiya da yeni dönəmə girib. Tarixi Azərbaycan torpaqlarında qurulmuş Ermənistan türk dünyasının ümumi problemidir. Azərbaycan Qarabağda işğalçıya ağır zərbə vurmaqla, onu öhdəliklərə vadar etməklə, türk dünyasının önünü açıb: "Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəferin müjdəçisi olmuşdur". (R.T.Ərdoğan).

Burada Naxçıvan Zirvəsində Azərbaycan Prezidentinin Zəngəzurla bağlı dediklərini xatırlamaq yerinə düşər: "Zəngəzura gəldikdə, mən Naxçıvan zirvəsindəki çıxışımı xatırlatmaq istəyirəm. O zaman mən demişdim ki, 1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq"...

## TDT-nin Vlll Zirvə görüşünün Bəyannaməsi

"İstanbul Bəyannaməsi"ndə nələr var? Bəyannamə:

– Naxçıvan Sazişinin məqsəd və prinsiplərini əsas götürüb;

– Türk xalqların ortaq tarixi, dili, mədəniyyəti, adət-ənənələri və dəyərlərinə əsaslanan işbirliyi və həmrəyliyin dərinləşdirilməsinə, genişləndirilməsinə sadiqliyi ifadə edib;

– Türk dövlətlərinin müstəqillik əldə etdikdən sonra nail olduğu önəmli siyasi və sosial-iqtisadi irəliləyiş yüksək qiymətləndirilib.

Nəzərə alaq ki, bu il 5 qardaş ölkə öz dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümünü qeyd etdi və bu 30 il heç də asan keçmədi. Hər birimiz bir daha gördük ki, ulu öndərimiz Heydər Əliyevin söylədiyi kimi, "Müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir". Azərbaycan torpaqlarının işğalı və bu işğalın az qala müstəqilliyimizlə yaşıd olması bizim müstəqilliyimizə bəlli güclərin dözümsüzlüyünün ifadəsi idi. Başqa türk dövlətləri, məsələn, Qazaxıstanla bağlı müxtəlif rəsmi dairələrdə dəfələrlə səsləndirilən sərsəm fikirlər də bir daha göstərir ki, VIII zirvə toplantısında dövlət müstəqilliyinə vurğu edilməsi yüksək qiymətləndirilməlidir və təqdirəlayiq haldır. Bu vurğu qardaş dövlətlərin müstəqillik mövzusunda eyni mövqeni paylaşmağının təntənəsidir;

"Biz birlikdə daha güclüyük!" Bu, Türk Dövlətləri Təşkilatının şüarıdır və şüar sözlərindən daha artıq, daha mənalıdır.

Bəyannamədə beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş norma və prinsiplərinə, ozəlliklə də suverenliyə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət və dəstək ifadə olunması, öncə dediklərimizin qüvvətləndirilməsi, bilavasitə bu mövzuda daha çox problem yaşamış ölkəmizin ərazi bütövlüyünə dəstək ifadəsidir. Yəni 44 günlük qalibiyyətli müharibənin nəticələri qeyd-şərtsiz qəbul olunmalı, hər kəs öz öhdəliyinə sadiq qalmalıdır.

## "Yüksəl, türk, sənin üçün yüksəkliyin hüdudu yoxdur." (Atatürk)

Əlbəttə, VIII Zirvə Görüşünün yekun sənədi, orada verilmiş ismarıclar hələ çox müzakirə ediləcək, çox dostu sevindirib, dost ola bilməyənləri pərt edəcək. Burada Bəyannaməni başdan-başa təkrarlamadan və ya tam şərh etmədən, onu xüsusi vurğulayaq ki, "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası"nın adının "Türk Dövlətləri Təşkilatı"na çevrilməsi yalnız ad dəyişimi deyil. Bununla qurumun statusu yüksəldi, üfüqü genişləndi, missiyası dərinləşdi! Yüksəldikcə üfüqlərdən də uzağı görəcək, insanlığa yeni qatqıda olacaqıq. Dünyaya Günəş kimi doğan türkün yanar ürəyinin hərarətindən hər yana səfəq yayılacaq...

Hikmətə baxın, Vətən muharibəsindən az sonra Azərbaycan və Türkmənistan birimizin "Kəpəz", digərimizin "Sərdar" dediyi yatağı "Dostluğ"a cevirmişdi. Budur, İstanbul Zirvəsində Türkmənistan TDT-yə müşahidəçi dövlət kimi qoşuldu. 2019-cu ildə Özbəkistan da məhz Bakıda keçirilmiş VII Zirvə toplantısında Şuraya (indiki TDT) qoşulmuşdu...

Azərbaycanın bu ortaq ali türk qurumuna rəhbərliyi qəbul edib, təhvil verməsi iki yeni qoşulma ilə süsləndi, bu əziz qurumu cazibə mərkəzinə çevirdi.

Yeri gəlmişkən, uzaqdakı qardaşımız Macarıstanın bütün türk dövlətləri ilə əlaqələrini strateji səviyyəyə yüksəltməsi, üzv dövlətlərdə diplomatik nümayəndəliklər təsis etməsi, eləcə də, TDT-də müşahidəçi dövlət olaraq iştirakı yüksək sözlərə, öyülməyə layiqdir. İnanırıq ki, Macarıstan gələcəkdə müşahidəçilikdən tam hüquqlu üzv statusu qazanacaq və başqa qohum xalqlara, dövlətlərə də yol xəritəsi cızacaq. Ukrayna, Gürcüstan, Moldova, Bosniya–Herseqovina, Pakistan, Əfqanıstan, Qətər və başqa ölkələr TDT ilə işbirliyinin mümkün formulunu tapmaqda maraqlı olacaq. Onsuz da, Pakistan bizə qardaşdır, hər halda TDT ilə işbirliyi formullarının aranması, tapılması çox vaxt almamalıdır...

Macarıstanın TDT sıralarında olması "İslam ixracı"nı özünə "Anayasa vəzifəsi" bilən İranın məscidlərə donuz dolduran işğalçı Ermənistanla işbirliyi fonunda çox qiymətlidir. Xristian Macarıstan Qarabağda Azərbaycanın Zəfərinə sevinir, Azərbaycanla bir Zirvədə iştirak edir.

## "Azərbaycan ürəyimdə bir şah damardır!" (Y.B.Bakilər)

Azərbaycanın ali türk qurumuna rəhbərliyi biri (pandemiya) bəşəri, digəri (vandal Ermənistanın işğalına son qoymaqla yanaşı) daha üstün bəşəri nəticələrlə ifadə olunan iki müharibə ilə də yaddaşlarda qalacaq. Azərbaycan da, qardaşlarımız da bəşəri tərəqqi üçün çalışdı. Azərbaycan da, qardaşlarımız da xarakter etibarı ilə xeyirxahlıq, yardımlaşmaq, mehriban qonşuluq, birgə yaşayış kimi yüksək prinsiplərə sadiqdir. Tarixdə belə olub, günümüzdə belədir, gələcəkdə belə olacaq.

Türk dövlət və hökumət başçılarının VIII zirvə görüşü, orada imzalanan Bəyannamə, Azərbaycanın dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin məşhur sözlərini xatırladır: "Əcdadlarımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk". Bu sözlər Azərbaycan və Türkiyə dövlət başçısıları tərəfindən "Şuşa Bəyannaməsi" imzalanan zaman Şuşada deyilmişdi. Mənə elə gəlir, 12 noyabr 2021-ci il tarixli "İstanbul Bəyannaməsi" bütün digər məziyyətləri ilə birgə 15 iyun 2021-ci tarixli "Şuşa Bəyannaməsi"nin də davamıdır...

Dövlətimiz, bayrağımız daim ucada olsun, zaval görməsin!

***Əkbər QOŞALI***

Xalq qəzeti .- 2021.-16 noyabr.- S.3.